

# Fərrux zirvəsində Azərbaycan bayrağı dalğalanır

***Azərbaycanın daha bir ərazisində dövlət bayrağı dalğalanır. Xüsusi strateji əhəmiyyətə malik olan Xocalı rayonunun Fərrux kəndi Azərbaycanın tam nəzarətindədir. Qanunsuz erməni silahlı dəstələri 30 il əvvəlki kimi, yenidən Fərruxdan atəşlər açmaqda və regionda atəşkəsi pozmaqda davam etdikləri üçün Azərbaycan Ordusu əks-əməliyyat keçirərək, ərazini qanunsuz silahlılardan təmizləyib. Rəşadət tariximizə "Fərrux zəfəri" adlı yeni bir səhifə yazılıb.***

Qısa tarixi ekskurs edərək xatırladaq ki, 1988-ci ildə Qarabağ hadisələri başlanandan İrəvan, Livan və Suriyadan gətirilərək Fərrux kəndində yerləşdirilmiş erməni silahlıları, muzdluları ətraf kəndləri atəşə tutub, dinc azərbaycanlı əhalini qətlə yetirib, yaralayıblar. Fərrux yüksəkliyindən ermənilər dəfələrlə hücumlar təşkil ediblər. 1992-ci il yanvarın 31-də Milli Qəhrəman Şirin Mirzəyevin başçılıq etdiyi tabor və yerli özünümüdafiə qüvvələri Fərrux kəndinin erməni quldurlarından azad edib. Lakin sonradan işğalçılar oranı yenidən ələ keçiriblər. Kənd 2020-ci ilə kimi işğal altında olub. İndi isə üçtərəfli 10 noyabr Bəyanatına uyğun olaraq Fərrux kəndi müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə keçsə də, revanşistlər orada aranı qataraq, necə deyərlər, bulanıq suda balıq tutmaq istəyirdilər. Amma alınmadı.

Növbəti dəfə oxu daşa dəyən ermənilər bu gün dünyaya car çəkərək bildirirlər ki, guya, Azərbaycan tərəfindən yeni təhdidlərə məruz qalıblar. Müharibədən ötən ilyarıma qədər vaxt ərzində onlar özləri məlum 10 noyabr bəyanatına görə, silahlı dəstələrinin Azərbaycan ərazisindən çıxarılmasını təmin etməyiblər. Əksinə, mövqelərini yeniləyib, səngərlər qazıb, kameralar yerləşdiriblər. İndi də xislətlərinə xas vay-şivən qoparırlar.

Məlum olduğu kimi, martın 25-də Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun Rusiya Federasiyasının müdafiə naziri, ordu generalı Sergey Şoyqu ilə telefon danışığı zamanı Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan əraziləri boyunca yaranmış vəziyyət müzakirə olunub. Söhbət zamanı Azərbaycan tərəfi bəyan etmişdir ki, məntəqələrdə mövqelərin və dislokasiya yerlərinin dəqiqləşdirilməsi aparılır. Lakin buna baxmayaraq, ertəsi gün səhər saatlarında qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri ordumuzun bölmələrinə qarşı təxribat törətməyə cəhd göstəriblər. Dərhal görülən tədbirlər nəticəsində terrorçu törtöküntüləri geri çəkilməyə məcbur edilib.

Azərbaycan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata sadiqdir və onun heç bir müddəasını pozmayıb. Məhz Ermənistan bəyanatın müddəalarını pozan tərəfdir. Rusiya Federasiyası Müdafiə Nazirliyinin Fərruxda (bu ad da təhrif edilərək Furux kimi yazılıb) baş verənlərə bağlı açıqlaması isə bu ölkə ilə Azərbaycanın ikitərəfli əlaqələrin mahiyyətinə və 2022-ci il 22 fevral tarixində iki ölkə arasında imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannaməyə ziddir.

Həmin sənəddə aydın şəkildə ifadə olunub ki, Rusiya və Azərbaycan öz münasibətlərini müttəfiqlik fəaliyyəti, ölkələrin suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiqlik əsasında qururlar. Həmçinin Rusiya və Azərbaycan öz ərazilərində təşkilatların və şəxslərin digər tərəfin dövlət suverenliyinə qarşı yönəlmiş fəaliyyətin qarşısını qətiyyətli surətdə almalıdırlar. Hər iki ölkə beynəlxalq terrorçuluq, ekstremizm və separatçılıq təhdidlərinə, transmilli mütəşəkkil cinayətkarlığa, silahların qanunsuz dövriyyəsinə qarşı mübarizədə və onların neytrallaşdırılmasında səylərini birləşdirməlidirlər. Belə olan təqdirdə Rusiya MN-nin qeyri-obyektiv açıqlaması təəccüb və təəssüf doğurur. Ərazilərimizdə dislokasiya yerlərinin dəqiqləşdirilməsindən canlarına vicvicə düşən ermənilərin mənasız haray-həşirinə uyaraq, belə açıqlamalar verməknə dərəcədə ciddi yanaşmadır? Üstəlik, Rusiya MN hələ də xəritəmizdən birdəfəlik silinmiş qondarma "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidinin köhnə adına istinad edir ki, bu da tamamilə yolverilməzdir.

Yuxarıda qeyd edilənlərlə əlaqədar Azərbaycan Respublikası Müdafiə Nazirliyi Rusiya Federasiyası Müdafiə Nazirliyini üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq Ermənistan ordusunun qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərindən tam olaraq çıxarılmasını təmin etməyi, Azərbaycan Silahlı Qüvvələrinin ölkəmizin suveren əraziləri daxilində hərəkətini təhrif edilmiş formada qələmə verməməyi, "Dağlıq Qarabağ" ifadəsi işlətməməyi və Azərbaycan ərazilərinin adını düzgün olaraq göstərməyi xahiş etmişdir.

Azərbaycan Ordusunun suveren ərazilərdə dislokasiya dəqiqləşdirmələri pozulmuş tarixi ədalətin bərpası kimi böyük missiyanı reallaşdırmaq ölkəmizin haqq işidir, 10 noyabr 2020-ci il tarixli məlum üçtərəfli Bəyanatda öz əksini tapmış müddəalardandır və Ermənistan göyə də çıxsa, yerə də girsə, davamlı bir prosesdir.

Xarici İşlər Nazirliyinin və Müdafiə Nazirliyinin dövlətimizin mövqeyini göstərən bəyanatları vəziyyətlə bağlı əsl həqiqəti əks etdirir. Xocalı rayonu ərazisindəki Fərrux kəndinin düşməndən azad edilməsi və bütün bu proseslər məhz Prezident İlham Əliyevin Qarabağ siyasətinin son dərəcə düzgünlüyünü, qarşıya qoyulan məqsədə səbrlə, addım-addım çatmağa hədəfləndiyini göstərir.

Bildiyimiz kimi, bu ayın ortalarında Ermənistandan Xankəndiyə gələn və buna görə heç bir trafik haqqı verilməyən kəmərdə yaranmış texniki nasazlıq üzündən qaz verilişi dayandığı üçün Azərbaycan tərəfi humanizm prinsiplərini əsas tutaraq, orada təmir işləri görüb və hazırda xətdə test prosesləri aparılır. Qaz verilişi məhz bizim tərəfimizdən bərpa olunur. Ermənistanın beynəlxalq hüquq məsələləri üzrə nümayəndəsi Yeqişe Kirakosyan isə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciətlə xahiş edib ki, Qarabağ ermənilərinin qazını kəsməklə onların hüquqlarını pozan (?!) Azərbaycana qarşı tədbirlər görsün. Həyasızcasına, absurd yanaşmadır. Belə siyasi manipulyasiyaların ustası olan Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan da bütün alçatan vasitələrdən istifadə edərək şivən qoparıb. O, parlamentdə çıxışı zamanı deyib ki, etnik təmizləmə aparan Aərbaycanın təzyiqi üzündən Qarabağ erməniləri qazsız qalıblar. Bilərəkdən unudulur ki, əhalinin problemlərini revanşist çıxışlarla, gizli silahlanma ilə, qisas təhdidləri ilə deyil, sülhniyyətli danışıqlarla, masa arxasında bir araya gəlməklə həll etmək olar.

İstənilən halda, Azərbaycan dövləti böyük siyasi iradə nümayiş etdirərək, erməni silahlı qalıqlarının Qarabağdan çıxarılmasında qətiyyətini, sülhməramlılardan fərqli olaraq, aparıcı rolunu ortaya qoyub və yenə Ermənistanı haqsız olduğu qədər də məğmun duruma salıb. Təkcə Rusiya MN-in məsələyə qeyri-obyektiv yanaşması ilə deyil ki! Dünya görür ki, Azərbaycan məhz öz ərazilərində lazımi qayda, sahman yaradır.

Məsəl var ki, sirkə tünd olduqca öz qabını sındırar. Bir qədər əvvəl əgər Ermənistan bir Zəngəzur dəhlizini açmaq istəmirdisə, indi artıq iki Zəngəzur dəhlizi – Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonunu İran ərazisindən keçməklə Naxçıvanla birləşdirən Cənub Zəngəzur Dəhlizi və yaxın vaxtlarda mütləq reallaşacaq Zəngilan – Mehri – Ordubad istiqamətini nəzərdə tutan Şimal Zəngəzur Dəhlizi reallığı ilə barışmaq zorunda qalıb. Eləcə də Fərrux zirvəsinə Azərbaycan bayrağının sancılması. Qanunsuz silahlı quldurlar ərazilərimizi ilyarıma qədər bir müddət ərzində tərk edib rədd olmurlarsa, sülhməramlıların arxasında gizlənərək vaxtaşırı biz tərəfə güllə atırlarsa, əlbəttə, sıxışdırılacaqlar və çevrələri durmadan daralacaq. Hələ qanuni Azərbaycan torpaqlarında, Qarabağda onlara qarşı antiterror əməliyyatlarına başlanması ehtimalı da gündəmdədir. Beynəlxalq hüquq da, Rusiya ilə son müqavilə də buna hər cür imkan verir.

Hayların rəsmi və qeyri-rəsmi davranışlarından görünən budur ki, Ermənistan tərəfi özünün şou xarakterli təbliğatları ilə separatçıların fəaliyyətini legitimləşdirmək istəyir. Hələ bir ay öncə "baş diplomat" Ararat Mirzoyan Cenevrədə BMT-nin İnsan Haqları Şurasının iclasında növbəti dəfə Azərbaycanın ünvanına böhtan xarakterli tənqidlər səsləndirib. Bəyan edib ki, guya, Azərbaycan beynəlxalq təşkilatların Qarabağdakı erməni qaçqınların problemlərinin həll etməsinə mane olur. 44 günlük müharibənin yaratdığı humanitar problemlərə və onların həlli istiqamətində atılan addımlara toxunaraq, Qarabağda əhalinin əsas hüquq və azadlıqlarının tam şəkildə həyata keçirilməsi üçün lazımi şəraitin təmin edilməsini və beynəlxalq yardımın göstərilməsini istəyib: "Beynəlxalq humanitar təşkilatlara, o cümlədən, BMT strukturlarına Qarabağa maneəsiz çıxış təmin edilməlidir". Burada yada "Gəl, qal, gedəndə də altındakı xalçaya sahib çıx" məsəli düşür. Buna Ermənistanın diplomatik müstəvidə davamlı müharibə aparmaq istəyindən başqa nə ad vermək olar? Ermənilərin məqsəd odur ki, bütün dünyaya Qarabağ məsələsinin həll olunmadığını təlqin etsinlər. Keçməz! Onların ağzına dil atanlar və yeni-yeni fitnələrə sövq edənlər məsələyə sırf şeytani yanaşma nümayiş etdirmələrinin fərqində deyillərmi?

Öz növbəsində, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsi Ermənistan XİN-in Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı son əsassız bəyanatını şərh edərək bildirib ki, bu qurumun bəyanatı tamamilə iftira xarakterlidir. Ermənistan tərəfi Azərbaycanın suveren əraziləri ilə bağlı verdiyi şərhlərlə ölkəmizin daxili işlərinə qarışmağa cəhd edir və beynəlxalq hüququ pozur. Otuz ilə yaxın güc tətbiq edərək Azərbaycan ərazilərinin bir hissəsini işğal altında saxlayan, bir milyondan çox soydaşımızı etnik təmizləməyə məruz qoyaraq öz evlərində yaşamaq hüququndan məhrum edən Ermənistan, görünür, bunu bir vərdiş halına gətirib. Məhz qarşı tərəf 10 noyabr birgə Bəyanatının 4-cü bəndinə zidd olaraq erməni silahlı qüvvələrinin qalıqlarını hələ də bölgədən çıxarmır. Halbuki, ötən günlər Rusiya Prezidentinin köməkçisi Dmitri Peskov birmənalı şəkildə demişdir ki, 10 noyabr Bəyanatının bütün bəndləri icra olunmalıdır. Ermənilər isə bəyanatın 6-cı maddəsini pozaraq, Laçın dəhlizi vasitəsilə hərbçilərin bölgəyə göndərilməsini davam etdirirlər. Bu fakt beynəlxalq media tərəfindən də təsdiqini tapıb.

Həmsoylarının min illərlə Fərruxda yaşamış olduqlarını iddia edən ermənilərə onu da xatırlatmaq yerinə düşər ki, axı, onların "f" hərfini səsləndirə bilməmək kimi linqvistik problemi var. Bəs, necə olub ki, kəndə həmin hərflə başlayan "Fərrux" adını qoyublar? Sonra da ona öz dillərində belə heç bir məna kəsb etməyən "Parux" deməyə məcbur olublar? Axı, onların toponimikasına "f" hərfi tamamilə yaddır...

Saxta ittihamlarla beynəlxalq ictimaiyyətə yalan müraciətlər edən Ermənistan anlamalıdır ki, bölgədə sülh və sabitliyin təmin olunması yalnız üçtərəfli bəyanat şərtlərinin sözsüz icrasından asılıdır. Bunun əksinə olan hər bir addım sülh quruculuğu prosesinə əngəl törədir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***